**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**

**KOLLEGİYASI**

# QƏRAR

**№**

**Bakı şəhəri** **07 avqust 2020-ci il**

## "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər və hazırlanan mühüm sənədlər haqqında

Son illər Azərbaycanda baş verən ictimai, iqtisadi və siyasi proseslər, ailənin möhkəmlənməsi və sosial müdafiəsi də daxil olmaqla gender bərabərliyinin bərqərar edilməsi üzrə milli mexanizmin inkişafı minillikdə qarşıya qoyulan məqsədlərə çatmaq kimi qlobal çərçivədə həyata keçirilir.

Ailədə formalaşan kişi və qadın münasibətlərinin nəticələrini biz cəmiyyətdə görürük və dövlət qarşısında həllini sorğulayan bir sıra məsələlərlə üzləşirik.

Ulu öndər Heydər Əliyev ölkədə ictimai-siyasi durumun ən ağır dönəminə baxmayaraq dövlət qadın siyasətini prioritet hesab edərək 1994-cü ildə qadınların ümumdünya Pekin konfransında iştirakı üçün sərəncam imzalamış və Azərbaycan qadınlarının həmin konfransda iştirakı təmin edilmişdir.

1998-ci ildə isə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Hüquqi-demokratik bir dövlət qurmaq üçün cəmiyyətin hər bir üzvünün inkişafı və iştirakçılığına ehtiyac vardı.

Məsələnin təhlili göstərir ki, qadınlarla yanaşı kişilərin də bəzi sahələrdə zəif təmsilçiliyi ümumilikdə gələcək nəslin tərbiyəsində bir sıra problemləri diqqətə gətirir.

Azərbaycanın bu istiqamətdə bir sıra beynəlxalq sənədləri ratifikasiya etməsi, o cümlədən BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi" barədə Konvensiyası və vaxtaşırı müvafiq qurum qarşısında ölkədə qadınların vəziyyəti ilə bağlı hesabatların verilməsi, problemin daha dərindən təhlil olunmasına imkan yaratmışdır.

14.09.1998-ci ildə Azərbaycan qadınlarının birinci qurultayının keçirilməsini cəmiyyətin əhəmiyyətli bir tərəfi kimi, o vaxt ölkədə ictimai-siyasi durumu nəzərə alsaq, bunu qadınların müstəqillik, dövlətçilik və tərəqqi yolunda bir səfərbərlik forumu kimi qiymətləndirmək olar.

06.03.2000-ci ildə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı, bu siyasətin davamı olaraq 06.02.2006-ci ildə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması, dövlət qadın siyasətinin inkişafına gender prizmasından yanaşaraq ailədə tənzimlənməsinə, qadını əhatə edən problemlərin həllinə imkan yaratdı.

Bu siyasətin hüquqi tənzimlənməsini təmin etmək üçün 10.10.2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanunu qəbul olundu və bu qanunun yerinə yetirilməsi Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə həvalə edildi və Komitənin vaxtaşırı Milli Məclisə qanunun yerinə yetirilməsi ilə bağlı hesab vermək kimi öhdəliyi oldu.

Ölkədə gender əsaslı problemləri nəzərə alsaq, beləki qızların təhsildən yayınması, erkən yaşda evlilik, selektiv abortlar, gender əsaslı zorakılıq, əmək bazarındakı bərabərsizlik, qadın iştirakçılığının təmin olunması, qərar qəbuletmədə bərabər iştirakçılıq və s. yuxarıda qeyd edilən qərarların qəbulu cəmiyyətin inkişafında, hüquqi dövlətin qurulmasında, milli-mənəvi dəyərlərin bərqərar olmasında və milli ideologiyanın formalaşmasında gələcək planları müəyyən etdi.

Sonradan qəbul olunan bütün sənədlər gender ekspertizasından keçərək ölkədə gender bərabərliyinin təminatına xidmət etməkdədir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 sentyabr 2000-ci il tarixli, 176 saylı qərarı ilə gender məsələləri üzrə məsul şəxslərin təyin edilməsi, imkan verdi ki, bütün dövlət qurumlarında, eləcədə şəhər və rayon icra hakimiyyətlərində gender məsul şəxslər təyin edilsin və hazırda təkcə dövlət deyil, həm də qeyri dövlət sektorunda da gender məsul şəxslərin təyin olunması istiqamətində tədbirlər həyata keçirilsin. Bu yaxında, iyul ayında Yerli özünüidarəetmə orqanları-bələdiyyələrdə də gender komissiyalarının yaradılması ilə bağlı bütün respublika üzrə seminar keçirildi. Qeyd edək ki, respublikanın 67 rayon və şəhərinin Gender Məsələləri üzrə Məsul şəxsləri-İcra Hakimiyyəti başçılarının İctimai-siyasi və humanitar məsələlər üzrə müavinləri, İcra Hakimiyyətlərinin şöbə müdirləri və digər əməkdaşları, bələdiyyə sədrləri, ərazi icra nümayəndələrinin iştirakı ilə "Gender Əlaqələndiriciləri üçün gender məsələlərinin təhlili" adlı onlayn təlimlər təşkil olundu. Bundan əlavə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu, 2016-cı il 6 dekabr tarixli "Azərbaycan Respublikasının milli iqtisadi perspektivi üzrə Strateji Yol Xəritəsi", "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən qəbul edilmiş "Dayanıqlı İnkişaf Məqsədləri" və s. sənədlərdə gender kompanenti bir strateji xətt kimi həllini gözləyir.

2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi qadınların insan hüquqlarından və fundamental azadlıqlardan istifadə etmələrinə mane olan halların, onlara qarşı müəyyən kök salmış ayrı-seçkiliyin təzahürlərinin tanıdılıb ortaya qoyulmasında mühüm addım olmuşdur. Məhz bu Qanun ictimai həyatın bütün sahələrində gender

bərabərliyinə əsaslanan inkişaf konsepsiyasına uyğun olaraq siyasətin həyata keçirilməsini əsas tutur.

Komitə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci Maddəsinə (Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı) əsasən Azərbaycan Respublikasının Milli Məclisinə illik məlumat təqdim etməlidir. Bununla əlaqədar olaraq cari ilin oktyabr ayında ölkədə gender bərəbərliyinin təmin edilməsi istiqamətində məlumat Komitə tərəfindən Milli Məclisə təqdim ediləcəkdir. Məlumatın ilkin versiyası şöbə tərəfindən hazırlanmış və 23 quruma fəaliyyət istiqamətlərinə uyğun olaraq Qanunun aidiyyəti maddələrinə əsasən suallar üzrə məktublar göndərilmişdir. Hazırda Qadın problemləri və gender məsələləri şöbəsində hesabatın ilkin variantı hazırlanmaqdadır.

Komitə tərəfindən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasınının 7.4 bəndinin icrasının təmin olunması, Birləşmiş Millətlər Təşkilatının "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya"sı (CEDAW), Pekin Bəyannaməsi və Fəaliyyət Platforması, Dayanıqlı İnkişaf Məqsədləri və digər beynəlxalq sənədlərə uyğun olaraq hazırlanan **"Azərbaycan Respublikasında Gender Bərabərliyi üzrə 2020-2024-cü illər üçün"** Milli Fəaliyyət Planı hazırlanmışdır. Sənəd layihəsi cari ilin may ayında maliyyə ekspertizasından keçirilməsi üçün Maliyyə Nazirliyinə təqdim olunmuşdur.

Eyni zamanda BMT Təhlükəsizlik Şurasının **"Qadınlar, Sülh və Təhlükəsizlik üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında Tətbiqinə dair 2020-2023-cü illər üçün"** Milli Fəaliyyət Planı hazırlanmışdır. Sənəd layihəsi cari ilin mart ayında Nazirlər Kabinetinə təqdim edilmişdir. Hazırda sənədin layihəsi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasındadır.

Komitə tərəfindən **"Azərbaycan Respublikasında Qadın məşğulluğunun təminatı ilə bağlı 2021-2023-cü illər üçün"** Milli Fəaliyyət Planının layihəsi hazırlanmışdır. Sənəd layihəsi ilkin rəy və təkliflərin bildirilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və BMT-nin Azərbaycandakı Nümayəndəliyinə təqdim edilmişdir. Artıq BMT-nin Azərbaycandakı Nümayəndəliyi öz təkilf və tövsiyələrini təqdim etmişdir, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən də cavab gəldikdən sonra sənəd layihəsi yenidən işlənilərək digər icraçı qurumlara qiymətləndirilmək üçün təqdim olunacaqdır.

Komitə tərəfindən hazırlanan **"Azərbaycan Respublikasında məişət zorakılığının aradan qaldırılması və onunla mübarizəyə dair 2020-2023-cü illər üçün"** Milli Fəaliyyət Planı "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa əsasən Nazirlər Kabinetinə göndərilmişdir. Hazırda sənəd layihəsi prosedura uyğun olaraq 16 dövlət qurumundan ibarət olmaqla viza toplanması mərhələsindədir.

Bu sənədlərin qəbul olunması qurumlararası gender siyasətinin həyata keçirilməsində mühüm rol oynayacaqdır.

Eyni zamanda Komitə Dövlət İmtahan Mərkəzi ilə birgə "Dövlət qulluqçuları üçün Kurrikulum", "Dövlət qulluğunda Təlimçilər üçün Təlim Modulu" və "Gender Əlaqələndiricilərin Təlimatı" sənədlərinin də hazırlanması istaqəmitində işlər görməkdədir. Hazırda beynəlxalq təcrübə öyrənilərək sənədlərin layihələri hazırlanır.

Layihə ali təhsil ocaqlarına və dövlət qurumlarına rəy və təkliflərin ümumiləşdirilməsi məqsədilə təqdim olunacaqdır.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər və hazırlanan mühüm sənədlər" haqqında məruzə və çıxışları dinləyərək Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**Q Ə R A R A  A L I R:**

1. "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun yerinə yetirilməsi istiqamətində həyata keçirilən tədbirlər və hazırlanan mühüm sənədlər haqqında məlumat nəzərə alınsın.
2. "Gender bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə uyğun olaraq hesabatın hazırlanması Qadın problemləri və gender məsələləri, Hüquqi təminat şöbələrinə tapşırılsın.
3. Qadın problemləri və gender məsələləri şöbəsinə tapşırılsın:
   - "Azərbaycan Respublikasında Gender bərabərliyi üzrə 2020-2024-cü illər üçün" Milli Fəaliyyət Planının prosedura uyğun olaraq hazırlanıb Nazirlər Kabinetinə imzaya təqdim olunmasını təmin etsin;
   - BMT Təhlükəsizlik Şurasının "Qadınlar, Sülh və Təhlükəsizlik üzrə 1325 saylı Qətnaməsinin Azərbaycan Respublikasında Tətbiqinə dair 2020-2023-cü illər üçün" Milli Fəaliyyət Planının imzalanması istiqamətində tədbirləri başa çatdırsın;
   - "Azərbaycan Respublikasında Qadın məşğulluğunun təminatı ilə bağlı 2021-2023-cü illər üçün" Milli Fəaliyyət Planının layihəsini müvafiq qurumlara göndərilməsini təmin etsin və sənədi vaxtında Nazirlər Kabinetinə imzaya hazırlasın.
4. Hüquqi təminat şöbəsinə tapşırılsın ki, "Azərbaycan Respublikasında məişət zorakılığının aradan qaldırılması və onunla mübarizəyə dair 2020-2023-cü illər üçün" Milli Fəaliyyət Planının həyata keçirilməsini təmin etsin.
5. İnformasiya və analitik araşdırmalar şöbəsinə tapşırılsın ki, "Dövlət qulluqçuları üçün Kurrikulum", "Dövlət qulluğunda Təlimçilər üçün Təlim Modulu" və "Gender Əlaqələndiricilərin Təlimatı" sənədlərinin layihələrinin hazırlanmasını təmin etsin.
6. Qərarın icrasına nəzarət Komitənin sədr müavini Sədaqət Qəhrəmanovaya və aparat rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**